**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**TARİX FAKÜLTƏSİ**

**5102.01 “ETNOQRAFIYA VƏ ETNOLOGIYA” İXTİSASI**

# DOKTORANT VƏ DİSSERTANT HAZIRLIĞI ÜZRƏ FƏLSƏFƏ DOKTORU PROQRAMINA QƏBUL İMTAHANININ

# PROQRAMI

**Fakültə Elmi Şurasının sədri**
**________________İbrahim Zeynalov**
**Fakültə Tədris Metodik Şurasının sədri**
**_________________Mehman Abdullayev**

**Bakı 2026**

**Tərtib edənlər:**
**Dos. Kərəm Məmmədov, t. ü. e.d., prof. Bünyadova Şirin**

**Elmi redaktor**: **t.e.d.prof. İsmayılzadə Qüdrət**

Rəyçilər:
**t. ü. e.d., prof Quliyeva Nərgiz Malik qızı**
**t. ü. e.d., Quliyeva Vəfa Ağakərim qızı**

## ETNOQRAFIYA VƏ ETNOLOGIYA

## İZAHAT VƏRƏQİ

Etnoqrafiya və etnologiyanın əsas problemləri. Tarixi qaynaqlar əsasında aparılan elmi araşdırmalar nəticəsində əldə edilmiş nəticələrin tədris prosesinə cəlb edilməsi. Tələbələrin bilik səviyyəsinin təkmilləşdirilməsi və dərinləşdirilməsi üçün problem xarakterli mühazirə və məşğələ mövzularının müəyyənləşdirilməsi. Ayrı-ayrı mövzular üzrə başlıca qaynaqların və tarixi ədəbiyyatların tövsiyə edilməsi.

**Mövzu 1. ETNOQRAFİYA VƏ ETNOLOGIYANIN PREDMETI.**

Etnoqrafiya elminin tədqiqat obyekti. Etnos nədir? Etnik birliyin əlamətləri. Etnos nəzəriyyəsi problemi. Etnoqrafiyanın digər elmlərlə əlaqəsi (tarix, ədəbiyyat, coğrafiya, psixologiya və s.). Elmin yaranma tarixi. Etnoloji fikir tarixi. Bir elm kimi etnologiyanın formalaşması və müasir dövrdə (XX-XXI əsrlərdə) onun inkişafı. Etnoloji tədqiqatın metodları (yazılı mənbələrin öyrənilməsi, şifahi şərhlər, arxeoloji materiallar, müqayisəvi dil bilimi, statistik metodlar, çöl tədqiqatı). Xarici ölkələrdə etnologiyanın inkişafı. Təkamülçülük (evolyusionizm) və nümayəndələri (E.Taylor, Q.Spenser, A.Bastian, L.H.Morqan). Diffuzionizmin nümayəndələri. (F.Ratsel, L.Frobenius, F.Qrebner, K.Vissler, U.Rivers). Sosioloji məktəb nümayəndələri (E.Dürkqeym, L.Levi-Brül). Funksionalizm nümayəndələri (R.Turnvald, B.Malinovski, A.Radkliff-Braun). Amerika tarixi-etnologiya məktəbi nümayəndələri (F.Boas, A.Kreber). Etnopsixoloji məktəb nümayəndələri (A.Kardiner, R.Benedikt, M.Mid) Strukturalizm (G.Evans-Pritçard, K.Levi-Stros, F.de Sossür). Mədəni relyativizm (M.Xerskoviç). Yeni təkamülçülük-Neoevolyusionizm (L.Vayt, D.Stüard, M.Xarris). Etnologiyada yeni konsepsiyalar (M. Qlükman, R.Nidxem, M.Qodelye, K.Melisso, K, Girts, R. Terner) Rus etnologiya elminin yaranması (D.N.Anuçin, V.Q.Boqoraz, V.İ.İoxelson, L.Y.Şternberq) və onun XX əsrdə inkişafı (Y.V.Bromley, S.A.Tokarev, N.N.Çeboksarov, M.Q.Levin, V.A.Tişkov, S.V.Lurye və s.) Azərbaycanda etnoqrafiya elminin yaranması və müasir dövrdə inkişaf səviyyəsi.

**Mövzu 2. ETNOQRAFİYA ELMİNİN MƏNBƏLƏRİ VƏ TƏDQİQAT ÜSULLARI.**

Arxeoloji, antropoloji, folklor, linqvistika, arxiv və muzey materialları. Yazılı mənbələr (şairlərin, mütəfəkkirlərin, dövlət xadimlərinin, səyyahların, salnaməçilərin əsərləri). Çöl tədqiqat işləri (bölgələr üzrə ekspedisiyaların təşkili). Etnoqrafik məlumatların toplanma üsulları, vasitələri və təhlil qaydaları. Dünya ölkələrində etnoqrafik müəssisə və təşkilatlar: Ali məktəblər. Elmi tədqiqat institutları (akademiyalar). Muzeylər. Beynəlxalq yığıncaqlar. Dövrü mətbuat və nəşrlər.

**Mövzu 3. DÜNYA XALQLARININ TƏSNİFATI.**

Coğrafi təsnifat. Tarixi-etnoqrafik əyalətlər anlayışı. Təsərrüfat-mədəni tiplərə görə təsnifat. İqtisadiyyatın (təsərrüfat və mədəniyyət) qarşılıqlı əlaqəsi. Dil təsnifatı. Morfoloji və geneoloji sistemlər. Dillərdə ailə, budaq, qrup, dialekt. İzolə olunmuş dil ailələri. Antropoloji təsnifat. İrq haqqında anlayış, onların yaranmasının əsas səbəbləri. Böyük və kiçik irqlər. Antropoloji tiplər. Keçid və qarışıq irqi qruplar. Etnik birliklərin sosial-tarixi

təsnifatı. Etnik birliklərin əsas tipləri: tayfa, tayfa birlikləri, əyalət icması, antik dünya qövmü, orta əsr qövmü, millət, super millət. Etnik və etnoqrafik qrupların fərqi. Dünya xalqlarının etnik tarixi. Etnik tarix və etnogenez anlayışları. Etnik birliklər və irqi tiplər (irqi nəzəriyyələrin tənqidi). Etnik proseslərin öyrənilməsi zərurəti. Dünya əhalisinin say artımı. Koloniyalar, miqrasiyalar. Müasir etnik proseslər - konsolidasiya və inteqrasiya.

**Mövzu 4. AVSTRALİYA VƏ OKEANİYA XALQLARI**

Avstraliya və Okeaniya xalqlarının tarixi-mədəni bölgələr üzrə bölgüsü: Avstraliya-Tasmaniya, Melaneziya, Mikroneziya və Polineziya. Miqrasiyanın qədim axınları. Papuasların əjdadları. Avstroneziyalılar. Qədim Okeaniyalıların birliklərinin tənəzzülü, Melaneziyanın qərb və şərq adalarının məskunlaşması. Polineziyalıların mənşəyi. Fici arxipelaqından Tonqa və Samoa adalarının məskunlaşdırılması. Polineziya etnik birliyinin və mədəniyyətinin formalaşması. Te Ranqi Xiroanın Polineziyanın məskunlaşması haqqında nəzəriyyəsi. Tur Xeyerdalın Polineziya adalarının məskunlaşması probleminin tədqiqi. Mikroneziyalıların mənşəyi. Avstraliya və Okeaniyanın müstəmləkəyə çevrilməsi və bunun nəticələri. Dünyanın müxtəlif xalqlarının Avstraliyaya köçü. Yerli əhalinin rezervasiyalarda yerləşdirilməsi. Yerli əhalinin qədim mədəniyyətinin dağılması. Azadlıq mübarizəsi. Avstraliya və Okeaniyanın müasir mədəniyyəti. Avstraliya və Yeni Qvineyanın daxili ərazilərində qədim mədəni xüsusiyyətlərin qorunub saxlanılması. Mədəniyyətlərin bir-birinə təsiri, Okeaniya adalarında mədəni ənənələr və yeniliklər.

**Mövzu 5. AVSTRALİYA XALQLARI**

Avstraliya aborigenlərinin dilləri. Maddi mədəniyyət: məşğuliyyətləri, ovçuluq, yığıcılıq və köçəri həyat tərzi. Sadə evlər, yeməkləri odun əldə olunması. İctimai təşkilat. Tayfa, fratriya nikah münasibətləri, nəsil, lokal qruplar, ailə, təqdis adətləri. Mənəvi mədəniyyət: inamlar, totemizm, magiya, miflər, xalq yaradıcılığı, rəqslər, təsviri sənət. Ənənəvi mədəniyyətin saxlanılması. Qəsəbələrdə və maldarlıq düşərgələrində yaşayan aborigenlərin tayfa məişətinin itirilməsi. Yerli əhalinin müasir yaşam tərzi və hüquqları. Avstraliyalı ingilislər, onların mədəni özünəməxsus xüsusiyyətləri. Dini müxtəliflik.

**Mövzu 6. YENİ QVİNEYA XALQLARI**

**MELANEZİYA XALQLARI.** Papuaslar. Onların dilləri. Maddi mədəniyyət: məşğuliyyətləri, ovçuluq, balıqçılıq, tropik əl əkinçiliyi, ev heyvanları. Yaşayış məskən və ev tipləri, kişi evləri, yeməkləri. Geyim və bəzəklər. Sənətkarlıq: ağacişləmə. Sənətkarlıq: toxuculuq, dulusçuluq, daş balta, tapı istehsalı. İctimai quruluş: nəsli icma, heterogen icma, qonşuluq icması. Ailə münasibətləri, ikili ailə. Mənəvi mədəniyyət: inamlar, totemizm, magiya, kəllə kultu, xalq yaradıcılığı, xristianlıq. Patriarxata keçid, kənd icması, gizli kişi ittifaqları. Ənənəvi mübadilə formaları. Kula. Kapitalist münasibətlərinin daxil olması. Xristianlaşma.

**Mövzu 7. YENİ KALEDONİYA VƏ LUAYOTE ADALARININ XALQLARI**

Kanaklar. Dil mənsubiyyəti. Maddi mədəniyyət: suvarma əkinçiliyi, yaşayış məskənləri, dairəvi evlər. qayıq istehsalı İctimai quruluşun xüsusiyyətləri, tayfa təşkilatı. Ailə münasibətləri, ata nəsli. Mənəvi mədəniyyət: ənənəvi mədəniyyətin

avropalaşdırılması. Vahid etnosun konsolidasiya prosesi. Hind mənşəli əhalinin sayının artması

## Mövzu 8. POLİNEZİYA XALQLARI HAVAY ADALARI XALQLARI YENİ ZELANDİYA XALQLARI MİKRONEZİYA XALQLARI

Bütün Polineziya xalqlarının dil, antopoloji quruluş və ənənəvi mədəniyyət yaxınlığı. Yerli xalqın metisləşməsi. Dillər. Maddi mədəniyyət: məşğuliyyətləri, əl əkinçiliyi, balıqçılıq, ev heyvanları. Sənətkarlıq: tapı istehsalı, ağacişləmə və daşişləmə. Ənənəvi və müasir yaşayış məskən və evləri. Ənənəvi və müasir geyim və bəzəklər. Yeməklər. Dənizçiliyin inkişafı. Qayıq növləri. Dənizçiliyin inkişafı. Keçmişdə ictimai təşkilat. Kasta bölgüsu. Kahinlər kastası. Ailə münasibətləri: böyük patriarxal ailə. Qonşuluq icması. Mübadilənin zəif inkişafı. İlkin sinifli dövlət. Müasir dövrdə ənənəvi sosial qaydaların yox olub getməsi. Kapitalist sosial-iqtisadi münasibətlərinin hökmranlığı.

Mənəvi mədəniyyət: xristianlaşma. Ənənəvi dinlər. Dörd ali təbiət allahı. Mana. Tabu. Tarixi rəvayətlər. Geneologiya. Məktəblər. Pasxi adasının yazısı və heykəlləri. Təhsil, xalq yaradıcılığı, musiqi, nəğmə və rəqs.

## Mövzu 9 AFRİKA XALQLARI

Afraziya xalqları dil ailəsi: semit, bərbər, kuşit, çad. Niger-kordofan və ya konqo-kordofan dil qrupları (Niger-konqo və kordofan qrupu). Nil-saxara dil ailəsi (şaro-nil, saxara, sonqai dil qrupları). Koysan dil ailəsi. Avstroneziya dil ailəsi (malaqas dili). Hind-Avropa dil ailəsi (alman, roman, hind-ari qrupu). Din: İslam, xristianlıq və yerli tayfa inam və kultları.

Afrikanın müstəmləkələrə qədərki sosial quruluşu və etnik tarixi. Afrika - «bəşəriyyətin beşiyi». Efiopiyada son arxeoloji qazıntılar zamanı tapılan daha qədim qadın – Ardipitek (Lusi). Paleolit dövrü insanları, neolit dövrü insanlarının məişət və mədəniyyəti. Qədim misirlilərin başqa xalqlar haqqında təsəvvürləri. Saxaradan cənuba Afrikanın etnik tarixi. Əhalinin miqrasiyası. Bantu tayfalarının əjdadlarının köç yolları. Piqmeylərin və koysan xalrqarının etnik ərazilərinin dəyişməsi. Ərəblərin VII-XI əsrlərdəki işğalları. Yerli əhalinin ərəbləşməsi. Yerli əhalinin müsəlmanlaşması. Ərəb mədəniyyəti ilə yerli mədəniyyətin çulğalaşması. Şimali Afrika ərazilərinin Osmanlı imperiyasının tərkibinə daxil olması.

Saxaradan cənuba orta əsr dövlətlərinin - Qana, Mali, Sonqai, Kanem-Bornu; Qvineya sahillərində - İfe, Oyo, Yoruba, Aşanti, Daqomeya, Benin, ekvatordan cənuba - Konqo, Anqola, Monomotapa; Madaqaskarda-İmerina yaranması. Qohum etnik qrupların bu dövlətlər çərçivəsində konsolidasiyası. Konqonun bayaka tayfaları. Qul alveri ilə əlaqədar Afrikanın etnik xəritəsinin dəyişməsi. XIX əsrin sonlarında hərbi-siyasi birliklər. Avropa ölkələrinin Afrikada müstəmləkə siyasəti. Çakanın başçılığı ilə Zulu dövlətinin yaranması. Tayfaların miqrasiyası və yeni etnosların əmələ gəlməsi. Afrika xalqlarının qeyri-bərabər sosial və tarixi inkişafı prosesi. İctimai təkamülün üç əsas mərhələsi: ibtidai-icma quruluşunun dağılması, ilkin sinifli münasibətlərə keçid və ilkin sinifli cəmiyyətlər. İctimai inkişafda icmanın rolu. Müasir Afrikada əkinçilik icmaları.

Afrika xalqlarının tarixi-mədəni xüsusiyyətləri. Şimali Afrika xalqları. Misir və Məğrib ölkələri: Əlcəzair, Tunis, Mərakeş, Liviya. Bərbərlər. Maddi mədəniyyət: təsərrüfatda əkinçilik və maldarlığın müxtəlif bölgələrdə qarşılıqlı münasibətləri. Köçəri

və yarımköçəri maldarlıq. Bağçılıq. Sənətkarlıq: toxuculuq, xalçaçılıq, zərgərlik, saxsı, dəmir, dəri istehsalı. Düzənlik və dağlıq ərazilərdə yaşayış məskən və evləri, köçərilərin evləri. Ənənəvi və müasir geyim növləri. İqtisadi və ictimai münasibətlər. Patriarxal-icma münasibətlərinin qalıqları. Ailə məişəti.

Şimal-şərqi Afrika xalqları. Somali və Efiopiyada etnik proseslər. Burada yaşayan müxtəlif tayfalar. Efiopiya - əkinçilik mədəniyyətinin qədim mərkəzidir. Maldarlıq və əkinçilik. Somalilərdə köçəri maldarlıq. Sənətkarlıq: toxuculuq, zərgərlik, dəmirçilik və dulus çarxı olmadan dulusçuluq. Maldarlarda dəri itehsalı. Yaşayış məskən və evləri. Geyim və bəzək növləri. Ailə məişəti.

Qərbi tropik Afrika xalqları. Bambara və məskun olduqları dövlətlər: Mali, Qvineya, Mavritaniya, Qambiya. Maddi mədəniyyət: Ovçuluq və balıqçılıq. Əkinçilik və maldarlıq. Fulbe və tuareqlərdə maldarlıq. Yaşayış məskən və evləri, böyük ailə evləri, yığıncaq evləri və qala-evlər. Əkinçi və maldarların geyim və bəzəkləri. Hausa və kanurilərdə ağacişləmə, dəriişləmə, toxuculuq, dəmirçilik. İfe incəsənəti. Beninin tunc heykəlləri. Ailə məişəti. Sosial-iqtisadi quruluş. Zümrə-kasta ayırımı. İbtidai-icma münasibətləri qalıqları. Ailə məişəti. Nəsli anaxətti qrupları. Dövlətçilik. Gizli kişi ittifaqları, qadın ittifaqları. Mənəvi mədəniyyət: dini təsəvvürlər, əjdad kultu, fetişizm, animizm, cadugərlik. Cənub, Şəqri Tropik və mərkəzi Afrika xalqları. Maddi mədəniyyət: Qərbi bantularda toxa əkinçiliyi. Konqo hövzəsində maldarlıq. Ovçuluq və balıqçılıq. Şimal-şərqi bantularda süni suvarma. Ailə məişəti. Mənəvi mədəniyyət: dini təsəvvürlər, xalq yaradıcılığı.

Şəqri Tropik Afrika xalqları. Keniya, Tanzaniya. Masailər, makondelər və digər xalqlar. Maddi mədəniyyət: Şəqri Tropik Afrikada maldarlıq, əkinçilik. Yaşayış evləri (kraal). Geyim və bəzəklər. Ailə məişəti. Mənəvi mədəniyyət: dini təsəvvürlər, xalq yaradıcılığı, musiqi, rəqslər. Cənubi Afrika ölkələri: Botsvana, Lesoto, Namibiya, Svazilend, Cənubi Afrika Respublikası (CAR). Maddi mədəniyyət: Cənubi Afrikada (zulu, kosa və s.) əkinçilik və maldarlıq. Sənətkarlıq: ağacişləmə, dulusçuluq, toxuculuq, dəmirçilik, kalebas, səbət və məişət əşyalarının hörülməsi. Yaşayış məskən və evləri: dairəvi, dördkünc və s. daxmalar. Kişi evləri. Cənubi Afrikada kraal. Geyim və bəzək növləri. İctimai institutlar. Konqo xalqlarında ana nəsli münasibətlərinin qalıqlarının qorunması. Şərqi və cənubi bantularda patriarxallığın qalıqları. İcma mülkiyyəti və şəxsi mülkiyyət. Tayfa və nəsil başçıları. Şərqi bantularda qonşuluq icması. Kiçik ailə. Cənubi bantularda tayfa təşkilatının izləri. Kapitalist münasibətlərinin yaranması. Yerli əhalinin miqrasiyası və urbanizasiya prosesi. Fəhlə sinfi, yerli ziyalılar təbəqəsinin formalaşması. Bantu tayfalarının birləşməsi. Etnik birliklərin yaranması. Bantuların dini inamları. Mənəvi mədəniyyət: dini təsəvvürlər, xalq yaradıcılığı və s. Koysan xalqları. Piqmeylər. Keçmişdə hottentoqların təsərrüfat ukladı və ictimai quruluş. Buşmenlər. Kalaxari səhrasının ovçuları və yığıcıları. Maddi mədəniyyət: maldarlıq, əmək alətləri, Dəmir emalı. Müasir vəziyyət. Keçmişdə sosial təşkilat. Mənəvi mədəniyyət: dini inamlar, kultlar, qayaüstü təsvirlər, incəsənət. Müasir həyat tərzi.

Madaqaskar əhalisi. Malqaşların yaranması. Maddi mədəniyyət: əkinçilik, suvarma, maldarlıq, evlər, geyim və bəzəklər. Keçmişdə feodal münasibətləri. Qonşuluq icması.

Hind okeanı adalarının sakinləri. Komor adalarının sakinlərinin mənşəyi. Maddi mədəniyyət: əhalinin əsas məşğuliyyəti Maskaren və Seyşel adalarının sakinləri. Müxtəlif etnik qrupların adalarda qarışması. Afrikada müasir etnik proseslər.

Müstəmləkələr bölgüsü nəticəsində etnik vəziyyətin kəskin dəyişməsi. Tayfa başçılarının hakimiyyətinin saxlanılması. Gizli ittifaqlar. Ölkələrdə milli siyasət.

**Mövzu 10**. **ASİYA XALQLARI**

Asiyada tarixi etnoqrafik vilayətlər. Asiyanın qədim dil ailələri. Dravid, munda, çin-tibet, malay, polineziya dilləri. Altay dil ailəsinin türk, monqol, tunqus-mancur budaqları. Hind-Avropa dil ailəsinin hind və İran budaqları. Qabaq Asiyanın semit-hamit dilləri.

QABAQ (ÖN) ASİYA XALQLARI

Etnogenez və etnik tarix. Semit dilli qədim xalqlar (akkadlar, yəhudilər, xananeylər, arameylər, finikiyalılar). Şumerlərin etnogenezi. Coğrafi baxımdan Qabaq (Ön) Asiyaya daxil olan ərazilər (Kiçik Asiya, Mesopotamiya, Levant, Ərəbistan yarımadası və İran yaylası). Türkiyə, İran, Əfqanıstan, İrak, İsrail, Livan, İordaniya, Suriya, Səudiyyə Ərəbistanı, Yəmən, Oman sultanlığı, Birləşmiş Ərəb Əmirliyi, Bəhreyn, Küveyt, Qatar və Kipr.

Qabaq Asiyanın müasir dil ailələri. Xristianlığın və İslamın meydana gəlməsi. Qabaq Asiyanın ayrı-ayrı ölkələrində konsolidasiya və inteqrasiya prosesləri. Qabaq Asiyanın türk, İran, semit dilli xalqları. Druzlar.

Maddi mədəniyyət: Təsərrüfat, süni suvarma əkinçiliyi. Dəmyə əkinçiliyi. Oturaq, dağlıq, düzən və köçmə maldarlıq təsərrüfatının formaları. Pomadlar. Ərəb bədəviləri. Kustar sənətkarlıq. Metal emalı. Toxuculuq, xalçaçılıq. Dulusçuluq.

Şəhərlər və onların planlaşdırma qaydaları. Kənd yaşayış məskənlərinin tipləri. Müvəqqəti maldar düşərgələri. Əkinçilərin və maldarların yaşayış evlərinin tipləri. Ənənəvi xalq nəqliyyat vasitələri. Ənənəvi geyim və bəzəklər. Ənənəvi yemək və içkilər.

Ailə. Dini və adət hüquqlarının ailə-nikah münasibətlərinə təsiri. Köçəri qruplar arasında endoqamiya və levirat qaydaları. Monoqam və böyük ailələr.

Mənəvi mədəniyyət. Təhsil sistemi. Aşıq və xanəndələr. Xalq teatrı. İslam dini. Sünnü və şiə təriqətləri. Səudiyyə Ərəbistanında vahabilik. Suriyada ismaililər. Xristianlıq. İudaizm. Livan monofizitləri (maronitlər). Yezidi kürdlər.

**Mövzu 11. TÜRKİYƏ, İRAN, ƏFQANISTAN. İRAQ, İSRAİL**

Türkiyə xalqlarının etnik və mədəni xüsusiyyətləri. Polietniklik. Etnos və onun əlamətləri. Etnik tarix. Etnik psixologiya. Etnik mədəniyyət. Cənub-qərbi Asiyanın etnomədəni birliklərinin yaranması (e.ə. III minillik-eramızın I minilliyi). Türklərin yayılma arealı. Subetnik qruplar: yürüklər, türkmənlər, taxtacılar, abdallar, zeybəklər, çepnilər. Etnolinqvistik xarakteristika. Türkiyənin etnokonfessional (dini) tərkibi. Türkiyənin etnik tarixinin əsas mərhələləri (XI-XX əsrin əvvəlləri). Müasir Türkiyədə etnik vəziyyət: iqtisadi, demoqrafik, tarixi, siyasi. Maddi mədəniyyət. Təsərrüfat. Şəhərlər və kənd yaşayış məskənləri. Sənətkarlıq. Ənənəvi xalq nəqliyyat vasitələri. Ənənəvi geyim və bəzəklər. Ənənəvi yemək və içkilər. Ailə məişəti. Dini və adət hüquqlarının ailə-nikah münasibətlərinə təsiri. Monoqam və böyük ailələr. Mənəvi mədəniyyət: Təhsil sistemi, İslam dini. Yazı mədəniyyəti. Folklor nümunələri. Musiqi mədəniyyəti. Bayramlar, oyun və əyləncələr.

İran xalqlarının etnik və mədəni xüsusiyyətləri. Etnik və etnoqrafik qruplar. İranın etnik tarixi. Maddi mədəniyyət. Təsərrüfat. Şəhərlər və kənd yaşayış məskənləri. Ev tipləri. Sənətkarlıq. Ənənəvi xalq nəqliyyat vasitələri. Ənənəvi geyim və bəzəklər. Ənənəvi yemək və içkilər. Ailə. Dini və adət hüquqlarının ailə-nikah münasibətlərinə

təsiri. Monoqam və böyük ailələr. Mənəvi mədəniyyət. Adət və ənənələr. Novruz bayramı. Təhsil sistemi. İslam dini. Yazı mədəniyyəti. Folklor nümunələri. Musiqi mədəniyyəti.

Əfqanıstan xalqlarının etnik və mədəni xüsusiyyətləri. Maddi mədəniyyət. Təsərrüfat. Şəhərlər və kənd yaşayış məskənləri. Sənətkarlıq. Ənənəvi xalq nəqliyyat vasitələri. Ənənəvi geyim və bəzəklər. Ənənəvi yemək və içkilər. Ailə. Dini və adət hüquqlarının ailə-nikah münasibətlərinə təsiri. Monoqam və böyük ailələr. Mənəvi mədəniyyət. Adət və ənənələr. Novruz bayramı. Təhsil sistemi. İslam dini. Yazı mədəniyyəti. Xalq yaradıcılığı nümunələri. Musiqi mədəniyyəti. Yazılmamış qanunlar (puştunvala, tura, nınavati).

İrakın etnik tarixi və burada yaşayan xalqların etnik və mədəni xüsusiyyətləri. Maddi mədəniyyət: təsərrüfat, şəhərlər və kənd yaşayış məskənləri. Göl ərəbləri (madan). Sənətkarlıq, ənənəvi xalq nəqliyyat vasitələri. Ənənəvi geyim və bəzəklər, ənənəvi yemək və içkilər. Ailə. Dini və adət hüquqlarının ailə-nikah münasibətlərinə təsiri. Monoqam və böyük ailələr. Mənəvi mədəniyyət: Təhsil sistemi. İslam dini. Yazı mədəniyyəti. Xalq yaradıcılığı nümunələri. Musiqi mədəniyyəti. Bayramlar, oyun və əyləncələr.

İsrailin etnik tarixi, etnik və mədəni xüsusiyyətləri. Druzlar. Maddi mədəniyyət: təsərrüfat sahələri, şəhərlər və kənd yaşayış məskənləri. Sənətkarlıq, ənənəvi xalq nəqliyyat vasitələri. Ənənəvi geyim və bəzəklər, ənənəvi yemək və içkilər. Ailə. Dini və adət hüquqlarının ailə-nikah münasibətlərinə təsiri. Mənəvi mədəniyyət. Təhsil sistemi. İudaizm dini. Yazı mədəniyyəti. Xalq yaradıcılığı nümunələri. Musiqi mədəniyyəti. Bayramlar, oyun və əyləncələr.

**Mövzu 12. LİVAN, İORDANİYA, SURİYA SƏUDİYYƏ ƏRƏBİSTANI, YƏMƏN və OMAN SULTANLIĞI BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİYİ, BƏHREYN, KÜVEYT, QATAR, KİPR**

Etnik tarix, xalqlarının etnik və mədəni xüsusiyyətləri. Nabateylər. Maddi mədəniyyət: təsərrüfat, şəhərlər və kənd yaşayış məskənləri. Sənətkarlıq, ənənəvi xalq nəqliyyat vasitələri. Ənənəvi geyim və bəzəklər, ənənəvi yemək və içkilər. Ailə. Dini və adət hüquqlarının ailə-nikah münasibətlərinə təsiri. Monoqam və böyük ailələr. Mənəvi mədəniyyət. Təhsil sistemi. İslam dini. Yazı mədəniyyəti. Xalq yaradıcılığı nümunələri. Musiqi mədəniyyəti. Memarlıq abidələri - İordaniyada Petra. Bayramlar, oyun və əyləncələr.

Səudiyyə Ərəbistanının, Yəmənin, Oman sultanlığının etnik tarixi. Xalqlarının etnik və mədəni xüsusiyyətləri. Maddi mədəniyyət: təsərrüfat. Şəhərlər və kənd yaşayış məskənləri. Sənətkarlıq. Ənənəvi xalq nəqliyyat vasitələri. Ənənəvi geyim və bəzəklər. Ənənəvi yemək və içkilər. Ailə. Dini və adət hüquqlarının ailə-nikah münasibətlərinə təsiri. Monoqam və böyük ailələr. Mənəvi mədəniyyət. Təhsil sistemi. İslam dini. Yazı mədəniyyəti. Xalq yaradıcılığı nümunələri. Musiqi mədəniyyəti. Bayramlar, oyun və əyləncələr.

**Mövzu 13. ORTA ASİYA VƏ QAZAXISTAN XALQLARI.**

Etnik tarixin mühüm mərhələləri. Orta Asiya və Qazaxıstan xalqları qədim dövrlərdə. Kuşan çarlığı, evtalitlər dövləti. Dəri dilinin yayılması. Orta Asiya və Qazaxıstan xalqlarının formalaşması qazaxlar, özbəklər, qırğızlar, türkmənlər, taciklər, qaraqalpaklar. Feodal münasibətlərinin yaranması. Ərəb işğalları. Teymurilərin işğalları.

Şərqi slavyanların XIX-XX əsrlərdə Orta Asiyaya miqrasiyası. Rusiyanın Orta Asiya və Qazaxıstanı işğalları. Kazax-oralmanların yaxın və uzaq ölkələrdən dönüşü. Təsərrüfatı. Ənənəvi və müasir təsərrüfat formaları. Oturaq vadi əkinçiliyi. Çöl və yarımsəhra bölgələrdə köçəri maldarlıq təsərrüfatı. Vadilər ətrafında və böyük çayların hövzələrində yarım-oturaq əkinçi-maldarlar. Suvarma sistemi. Torpağın becərilməsi qaydaları. Bağçılıq, tərəvəzçilik, üzümçülük. Dəmyə əkinçiliyi. Kənd təsərrüfatı alətləri. Maldarlıq: köçəri, yarımköçəri, köçmə. Köç üsulları: stasionar, şaquli, meridian. Heyvan sürüsü (alaman). Kustar sənətkarlıq. Sosial quruluş. Vadi əkinçiləri arasında ictimai münasibətlər. Sinfi təbəqələşmə. Əkinçilik icmasının xarakteri (məhəllə). Köçəri icmasının nəsli-qəbidə quruluşu. Köçəri qəbilələr. Torpaq mülkiyyətinin xarakteri. Sosial bölgü: (qazaxlarda «ağ» və «qara» sümük, türkmənlərdə ağa və qullar). Adət hüququ. Kapitalist münasibətlərinin inkişafı. Maddi mədəniyyət. Şəhərlər və kənd yaşayış məskənləri. Yaşayış evi ilə bağlı adətlər və təsəvvürlər. Sənətkarlıq. Əkinçilərin və maldarların yaşayış evlərinin tipləri. Köçərilərin evləri - yurta. Ənənəvi xalq nəqliyyat vasitələri. Ənənəvi geyim və bəzəklərin etnik və bölgələr üzrə fərqləri. Ənənəvi yemək və içkilər. Süfrə mədəniyyəti. Gündəlik məişət əşyaları.

Ailə. Dini və adət hüquqlarının ailə-nikah münasibətlərinə təsiri. Köçəri qruplar arasında endoqamiya və levirat qaydaları. Ailənin formaları. Monoqam və böyük ailələr. Ailə daxili münasibətlər. Toy mərasimi, dəfn adəti, tərbiyə məsələləri.

Mənəvi mədəniyyət. Təhsil sistemi. Folklor. Aşıq və xanəndələr. Xalq teatrı. İslama qədərki dini inamlar. Orta Asiya şamanizmi. İslam dini. Yazı mədəniyyəti. Folklor nümunələri. Özbəklərdə «Alpamış», «Manas» eposu. Kazaxlarda milli mədəniyyətin əsas inkişaf xüsusiyyəti. Bilərin kazax cəmiyyətindəki rolu və yeri.

## Mövzu 14. CƏNUBİ və CƏNUB-ŞƏRQİ ASİYA XALQLARI.

Cənubi Asiya xalqlarının etnik tarixi. Əhalinin müasir etnik tərkibi. Cənubi Asiyanın müasir dövlətləri (Hindistan respublikası, Pakistan İslam respublikası, Banqladeş xalq respublikası, Şri-Lanka respublikası, Nepal və Butan krallıqları). Cənub-şərqi Asiya xalqları (Vyetnam respublikası, Kamboca respublikası, Laos, Bruney, Şərqi Timor, Tailand, Birma, Malayziya, Sinqapur, İndoneziya, Filippin respublikası). Maddi mədəniyyət. Təsərrüfat. Ənənəvi mədəni təsərrüfat tipləri. Kotan əkinçiliyi. Maldarlıq, iribuynuzlu heyvanların üzərinə qoyulan tabu. Fillərdən istifadə. Süni suvarma sistemi. Kustar sənətkarlıq. Metal emalı, zərgərlik, toxuculuq, xalçaçılıq, ağacişləmə. Nomad təsərrüfatının mədəni tipi. Köçəri və yarımköçərilər. Toxa əkinçiliyi, ovçuluq və yığıcılıq. Vedda və andomanlılar. Yaşayış məskənlərinin və yaşayış evlərinin tipləri. Tikişsiz və tikişli geyim tipləri. Dxoti və sari. Ənənəvi yeməklər.

Sosial quruluş. İctimai münasibətlər. Cənubi Asiyanın ayra-ayrı xalqlarının qeyri-bərabər ictimai-iqtisadi inkişafı. Hind kasta quruluşu. Dövlət sistemi ilə qarşılıqlı əlaqəsi. Ailə. Monoqam ailələrin üstünlüyü. Nikah bağlamaqda kasta məhdudiyyətləri. Şəriət qaydalarının təsiri. Çoxarvadlılıq və kalım.

Mənəvi mədəniyyət. Təhsil. Qədim epik dastanlar. Mahabharata və ramayana. Xalq teatr tamaşaları. Musiqi mədəniyyəti. Təsviri incəsənət. Xalq təbabəti. Yoqa sistemi. Dinləri: İslam. Xristianlıq. İudaizm. Buddizm. Sinqxizm. Məzdəkizm. Bayramlar, oyun və əyləncələr.

## Mövzu 15. ŞƏRQİ VƏ MƏRKƏZİ ASİYA XALQLARI.

Çin, Monqolustan, Koreya, Yaponiya. Əhalinin etnik mənsubiyyəti. Şərqi və mərkəzi Asiya xalqlarının etnik tarixi. Əhalinin müasir etnik tərkibi. Təsərrüfat. Süni suvarma sistemi. Kustar sənətkarlıq. Maddi mədəniyyət. Yaşayış məskənlərinin və yaşaşyış evlərinin tipləri. Ənənəvi yeməklər. Sosial quruluş. İctimai münasibətlər. Ailə. Monoqam ailələrin üstünlüyü.

**ÇİN.** Çinin subetnik qrupları. Etnik çinlər və yayılma arealı. Milli azlıqlar. Çinin etnik xəritəsi. XXəsrin ikinci yarısında Çində etnik proseslər. Matriarxatın üstün olduğu Çin xalqları (mosoo). Tibet məişəti. Tibet xalq təbabəti. Çində yaşayan türk dilli uyğurlar. Maddi mədəniyyət: Yaşayış məskənlərinin və yaşayış evlərinin tipləri. İsitmə qurğuları. Tikinti materialları, plan quruluşu, Fenşuy. Kan. Evlərdə bölgələr üzrə fərqlər. Ənənəvi yeməklər: gündəlik və bayram yeməkləri. Etiket və süfrə mədəniyyətinin xüsusiyyətləri. Bölgə mətbəxləri - Pekin, Şandun, Sıçuan, Quandun, Xunan. Şərab və çay. Ənənəvi geyim və bəzəklər. Qadın və kişi geyimləri. Geyimlərin işarəvi funksiyaları. Çin kostumunun simvolikası. Çin geyimlərində kənar mənimsəmələr. Etnik bölgələr üzrə fərqlər. Mənəvi mədəniyyət: bayramlar. Yeni il. Tsinmin. Ruh günü. Payızın ortası bayramı. Qış geyimlərinin yola salınması bayramı. İmperator sarayının təqvim ayinləri. Çin əkinçisinin təsərrüfat müddəti və bayramları. Müasir Çində ənənəvi bayramlar. Canlı və axirət dünyası ilə bağlı mərasimlər. Dini-fəlsəfi təlimlər. İnamlar, dini sinkretizm, məbədlər. Xalq yaradıcılığı. Teatr. Kənd teatrları mədəniyyətin mənbəyi kimi. Opera maskaları. Ailə məişəti ilə bağlı mərasimlər. Hamiləliklə, doğumla, adqoyma ilə, həyatın ilk ili ilə, uşağın böyüklər dünyasına keçidi ilə bağlı mərasimlər. Elçilik və toy. Dəfn mərasimi. Ölümdən sonra icra olunan adətlər. Çin soyadlarının əmələ gəlməsi. Çin adlarının semantikası. Ünsiyyətdəki müraciətlər.

Çinin sosial quruluşunun etnomədəni özünəməxsusluğu. Ailə və klan. Klanın ailə və nəsildən fərqi. Qardaşlıq. Sexlər və yerliçilik. Gizli cəmiyyətlər.

**MONQOLUSTAN.** Əhalinin etnik mənsubiyyəti və tarixi. Əhalinin müasir etnik tərkibi. Təsərrüfat. Süni suvarma sistemi. Kustar sənətkarlıq. Maddi mədəniyyət. Yaşayış məskənlərinin və yaşaşyış evlərinin tipləri. Ənənəvi yeməklər. Geyim və bəzəklər. Sosial quruluş. İctimai münasibətlər. Ailə. Monoqam ailələrin üstünlüyü. Mənəvi mədəniyyət: Xalq yaradıcılığı. Oyun və əyləncələr (Naadan). Bayramlar, din, təhsil. Xalq təbabəti.

**KOREYA.** Qədim Çoson. Əhalinin etnik mənsubiyyəti. Əhalinin müasir etnik tərkibi. Təsərrüfatın inkişaf mərhələləri. Süni suvarma sistemi. Kustar sənətkarlıq. Maddi mədəniyyət. Yaşayış məskənlərinin və yaşayış evlərinin tipləri. Ənənəvi yeməklər. Geyim və bəzəklər. Sosial quruluş. İctimai münasibətlər. Ailə. Monoqam ailələrin üstünlüyü. Mənəvi mədəniyyət: xalq yaradıcılığı. Oyun və əyləncələr. Bayramlar, din, təhsil. Xalq təbabəti. Sənayenin müasir inkişafı. Memarlıq abidələri - Tedon darvazaları (VI əsr), XIV əsr Budda məbədi. Ənənəvi Koreya rəssamlığı - çosonxva. Balıqqulağından hazırlanan şəkil-"manyenxva"(əbədi şəkil)

**YAPONİYA.** Əhalinin etnik mənsubiyyəti. Əhalinin müasir etnik tərkibi. Aynlar. Təsərrüfat. Süni suvarma sistemi. Kustar sənətkarlıq. Maddi mədəniyyət. Yaşayış məskənlərinin və yaşayış evlərinin tipləri. Ənənəvi yeməklər. Geyim və bəzəklər. Sosial quruluş. İctimai münasibətlər. Ailə məişəti. Monoqam ailələrin üstünlüyü. Mənəvi mədəniyyət. Bayramlar. Təhsil. Xalq teatr tamaşaları. Musiqi mədəniyyəti. Təsviri

incəsənət. Xalq təbabəti. Dinləri: qədim dini inamlar, Buddizm. Qədim Yaponiyada yazı və mədəniyyət. Qədim Kioto. Samuraylar. Sinto - Allahların yoludur.

**Mövzu 16.AVROPA XALQLARI**

Avropa xalqlarının etnik tarixi. Avropada ibtidai-icma və antik dövr. Xalqların böyük köçünün Avropadakı etnik proseslərə təsiri. Alman, slavyan və kelt tayfaları. Qərb və cənub slavyanları. Orta əsrlərdə etnik proseslər. Osmanlı işğalları. Qərbi Avropa böyük xalqlarının formalaşması. Müasir etnik proseslər, milli azlıqların vəziyyəti.

Dil təsnifatı. Hind-Avropa dilli xalqlar. Ural dil ailəsinin fin-uqor qrupu. Türkdilli xalqlar. Semit dilli xalqlar (maltalılar, basklar). Dinlər: İslam, Xristianlıq, katoliklər, pravoslavlar və protestantlar.

Aralıq dənizi tarixi-etnoqrafik ərazisi: Portuqaliya, İspaniya, Hibraltar, Andorra, Fransanın cənubu, Monako, İtaliya, Yunanıstan, San-Marino, Malta. Maddi mədəniyyət: heyvandarlıq, balıqçılıq, üzümçülük, bağ və bostançılıq. Yaşayış məskənlərinin və yaşayış evlərinin tipləri. Geyim və bəzəklər. Ənənəvi yeməklər. İctimai və ailə məişəti. Qonşuluq icması. Dini və vətəndaş nikahları. Mənəvi mədəniyyət. Bayramlar, din, mədəniyyətə verdikləri töhvələr. Musiqi mədəniyyəti.

Atlantik tarixi-etnoqrafik ərazisi: Böyük Britaniya, İrlandiya, Niderland, Belçika, Almaniya, Lüksemburq, Lixtenşteyn, Avstriya, Fransa. Maddi mədəniyyət: yüksək inkişaf etmiş sənaye və kənd təsərrüfatı: heyvandarlıq, balıqçılıq, üzümçülük, bağ və bostançılıq. Yaşayış məskənlərinin və yaşayış evlərinin tipləri. Ənənəvi yeməklər. Geyim və bəzəklər. Şəhər əhalisinin üstünlüyü. İctimai və ailə məişəti. Qonşuluq icmasının qalıqları. Milli azlıqlar. Mənəvi mədəniyyət: bayramlar, din, musiqi, folklor. Fransada «Roland haqda hekayə», İngiltərədə «Robin Qud», Almaniyada «Nibelunqlar haqda nəğmə», İrlandiyada saqalar, hekayələr.

Şimali-Skandinav tarixi-etnoqrafik ərazisi: İsveç, Norveç, Daniya, Finlandiya, İslandiya. Maddi mədəniyyət: heyvandarlıq, əkinçiliyin köməkçi rolu, balıqçılıq. Yaşayış məskənlərinin və yaşayış evlərinin tipləri. Ənənəvi yeməklər. Geyim və bəzəklər. Ailə məişəti. Müasir etnik proseslər. Mənəvi mədəniyyət: din, bayramlar, folklor karel-fin eposu «Kalevala». Musiqi mədəniyyəti.

Mərkəzi Avropa tarixi-etnoqrafik ərazisi: Albaniya, Macarıstan, Rumıniya, Bolqarıstan, Polşa, Çexiya, Slovakiya, Bosniya-Hersoqovina, Serbiya, Sloveniya, Xorvatiya, Kosovo. Maddi mədəniyyət: Yaşayış məskənlərinin və yaşayış evlərinin tipləri. Şəhərlər. Ənənəvi yeməklər. Geyim və bəzəklər. Ailə məişəti. Qonşuluq icması. Mənəvi mədəniyyət: din, bayramlar, musiqi, rumın doinləri.

Qərbi və cənubi slavyanlar. Maddi mədəniyyət: heyvandarlıq, bağ və bostançılıq. Bolqariyada qızılgülçülük. Yaşayış məskənlərinin və yaşayış evlərinin tipləri. Ənənəvi yeməklər. Geyim və bəzəklər. Ailə məişəti. Cənubi slavyanlarda «zadruqa». «Dojinlər». Urbanizasiya. Mənəvi mədəniyyət. Bayramlar, oyun və əyləncələr.

**Mövzu 17. ŞƏRQİ AVROPA XALQLARI**

Pribaltika xalqları. Etnik tərkib. Leto-litva və pribalt-fin dilləri. Pribaltika ərazisində feodalizm dövründə etnoqrafik ərazilər: Litvada - Jemaytiya və Aukştaytiya, Latviyada - Kurzeme, Zemqale, Latqale, Auqşzeme, Vidzeme, şimal və cənub estonları. Setu, Livlər. Maddi mədəniyyət: təsərrüfat sahələri. Yaşayış məskənlərinin və yaşaşyış evlərinin tipləri. Ənənəvi yeməklər. Geyim və bəzəklər. Ailə məişəti. Mənəvi mədəniyyət.

